**UOT 327**

# MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPADA ABŞ-RUSİYA ZİDDİYYƏTLƏRİ

**Rəhman NƏSİRLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 7 mart 2025; çapa qəbul edilmişdir: 12 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.
Received: 7th of March, 2025; accepted: 12th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *Rusiya-Ukranya müharibəsi, NATO-Rusiya münasibətləri, Krımın ilhaqı, sanksiyalar*

## Giriş

Təqdim olunan məqalə soyuq müharibə dövrünün başa çatmasından sonra Şərqi Avropada yaranan yeni geosiyasi reallıqlar fonunda və müasir beynəlxalq münasibətlərdə Rusiya-ABŞ ziddiyyətlərinin öyrənilməsinə həsr olunub. Məqalənin yazılması zamanı tarixi yanaşma, müşahidə, analitik və müqayisə metodlarından istifadə edilmişdir.

XX əsrin 80-ci illərinin sonundan etibarən kommunist rejimlərinin süqutu, bunun ardınca Sovet İttifaqının dağılması Mərkəzi və Şərqi Avropada yeni siyasi, iqtisadi münasibətlərin, o cümlədən beynəlxalq əlaqələrin keyfiyyətcə yeni bir mərhələsinin başlanğıcını qoydu. Keçmiş sovet “ukladlı” ölkələr siyasi və iqtisadi böhrandan çıxmaq məqsədilə islahatlar və dəyişikliklər yolu tutdular, demokratik istiqamət daha da möhkəmləndi. Dövlət mülkiyyətinin özəlləşdirilməsinə, bazar iqtisadiyyatına keçid siyasətinə başlanıldı. SSRİ-nin varisi olan Rusiya Federasiyası bu dövrdə Şərqi Avropadakı təsir dairəsinin böyük əksəriyyətini itirmişdi. Yalnız Kalinqrad bölgəsi keçmiş nüfuz dairəsində idi (3, s. 55).

XX əsrin 90-cı illərinin əvvəlindən başlayaraq, Şərqi Avropa dövlətləri Qərbə istiqamətlənməyə başladılar. 1993-cü ildən regiondakı dövlətlər Avropa İttifaqına daxil olmağı xarici siyasətlərində əsas prioritet məsələ kimi hesab edirdilər. Şərqi Avropa dövlətləri ilə Aİ arasında birlik müqavilələri 1995-ci ildə imzalanmağa başlandı. 1994-cü ildə əvvəllər VMT (Varşava Müqaviləsi Təşkilatı) və üç Baltikyanı ölkələrin tərkibində olan bütün Şərqi Avropa ölkələri, Qərbi Avropa İttifaqının məhdud hüquqlu tərəfdaşları statusunu aldılar (3, s. 56).

### 1. Mərkəzi və Şərqi Avropa regionunda Qərb-Rusiya ziddiyyətləri

İkinci Dünya müharibəsindən sonra SSRİ-nin yürütdüyü xarici siyasət H. Makkinderin “Şərqi Avropaya sahib olmaq Avrasiyaya sahib olmaq deməkdir” imperativinə uyğun gəlirdi. XX əsrin 80-90-cı illərində Şərqi Avropada mövqeyinin zəifləməsi və bir sıra digər amillər SSRİ-nin süqutunu labüd etdi. Rusiya tarix boyu idarə etdiyi əraziləri itirdi (4, s. 96).

Soyuq müharibə başa çatdıqdan sonra Avropa təhlükəsizliyinin yeni fəlsəfəsinin formalaşması prosesinə Rusiyanın ilk əhəmiyyətli töhfəsi əvvəl sovet, sonra isə rus qoşunlarının Almaniya, Macarıstan, Çexoslovakiya və Polşadan çıxarılması oldu. Rusiya

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* rehmannesirli1307@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.236**

hökuməti "Ümumavropa Evi"nin qurulması fikrini dəstəkləyirdi. "Ümumavropa Evi"-nin aparıcı siması qismində isə ATƏM-i (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi) görürdü. Qərbi Avropa ölkələri ilə qurulan iqtisadi münasibətlər Rusiyanın içinə düşdüyü dərin böhrandan çıxması üçün əhəmiyyətli ola bilərdi. Həmçinin Rusiya bu yolla Avropadakı keçmiş nüfuz dairələrini yenidən bərpa edə bilərdi.

Mərkəzi və Şərqi Avropa ölkələrinin NATO-ya üzv olması ilə bağlı məsələnin qoyuluşu zamanı Rusiyanın əks münasibət bildirməməsi bir sıra amillərlə izah olunurdu:

1. İlk növbədə Rusiyanın iqtisadi və hərbi cəhətdən zəifləməsi, ölkədə keçirilən islahatların səmərəli nəticələr verməməsi;
2. Ölkədə və postsovet məkanında sabitlik olmaması;
3. Rusiya prezidenti B.Yeltsin və dövrün Xarici İşlər Naziri A.Kozırev Qərblə münasibətdə Rusiyanın maraqları baxımından daha yumşaq davranırdı;
4. Qərb dövlətlərinin XX əsrin 90-cı illərinin ikinci yarısında Rusiya ilə daha səmimi münasibətlər qurması (4, s. 97-98).

Baş verən hadisələrin ciddiliyini görən Rusiya prezidenti rəsmi çıxışında "Sizin alyansınız şərqə doğru genişlənməməlidir" bəyanatı verərək ittifaqın genişlənməsinə razı olmayacağını bildirdi. 1994-cü il NATO-nun Brüsseldə keçirilən Zirvə görüşündə alyans üzvləri "NATO-nun genişlənməsini gözləyir və alqışlayır" bəyanatını etdi. B.Klinton məsələ ilə bağlı çıxışında qeyd etmişdi ki, "İndi məsələ NATO-nun yeni üzvlər qəbul edib-etməyəcəyi deyil, bunu nə vaxt və necə edəcəyidir". 1997-ci ildə Macarıstan, Çexiya, Polşanın NATO-ya qəbul olunması ilə bağlı qərar verildikdə Rusiya bu prosesləri yalnız izləməklə kifayətləndi.

1994-cü il Rusiya NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşuldu. 1997-ci il 27 may tarixində Rusiya Federasiyası ilə Şimali Atlantika Müqaviləsi Təşkilatı arasında qarşılıqlı əlaqələr, əməkdaşlıq və təhlükəsizlik haqqında əsas akt imzalandı. NATO ilə Rusiya arasında qarşılıqlı əlaqələrin genişlənməsi üçün NATO-Rusiya Daimi Birgə Şurası yaradıldı. Bu addım nəticəsində NATO-Rusiya əlaqələri əməliyyat çərçivəsindən çıxaraq konkret institusional forma aldı (4, s. 99).

Bu addımlar tərəflər arasındakı gərginliyi azaltmadı. Baş verən Kosovo böhranı münasibətləri pik nöqtəyə gətirdi. Moskva bu əməliyyatları beynəlxalq hüquqa zidd addım kimi qiymətləndirdi. Rusiyalı siyasətçi V.Kulaqinin də qeyd etdiyi kimi, "Avropa təhlükəsizliyinin həllində Rusiyanın fəaliyyəti bu müharibə ilə daha da azaldı". Rusiya buna baxmayaraq Bosniya və Hersoqovinadakı bir neçə əməliyyatda fəal iştirak etdi. Kosovo münaqişəsinin həllində Rusiyanın fəal iştirakı səbəbilə, 1999-cu ildə bölgəyə sülhməramlı qoşunlar yerləşdirildikdə rus sülhməramlıları da bu qoşunların tərkibində idi (4, s. 100).

2001-ci ildə baş verən terror hadisələrindən sonra dünyanın strateji vəziyyəti dəyişdi. Rusiya və NATO arasındakı münasibətlər bərpa edildi. Rusiya, Avropa və ABŞ arasında terrorizm, kütləvi qırğın silahlarının yayılması və s. digər məsələlərdə əməkdaşlıq quruldu. Rusiyanın bu əməkdaşlıqdakı əsas məqsədi NATO-nun növbəti genişlənmə mərhələsinə təsir etmək idi. Lakin NATO-nun bu dəfəki genişlənməsi Rusiya ilə NATO arasında yenidən ziddiyyətlərin yaranmasına gətirib çıxardı. Bu dəfəki genişlənmə zamanı yalnız Varşava müqaviləsi üzvləri deyil, keçmiş sovet respublikaları da Alyansa qoşuldular. 1999-cu ildə Polşa, Macarıstan və Çexiya NATO-ya üzv olaraq qəbul oldu.

2002-ci il 28 may tarixində Rusiya ilə 19 NATO dövlət başçılarının Romada keçirilən Zirvə toplantısında NATO-Rusiya münasibətlərinin yeni dövrünün başlandığı elan edildi. Bu məsləhətləşmələr birgə qərarlar və birgə fəaliyyət üçün yeni imkanlar yaradacaqdı. Eyni zamanda NA TO-Rusiya Şurası təsdiq edildi (4, s. 101). "Sülh naminə Tərəfdaşlıq" proqramı çərçivəsində dünyanın yeni gündəmi olan kütləvi qırğın

silahlarının yayılması, terrorizmlə mübarizə, böhranların idarə olunması, raketdən müdafiə sistemləri kimi problemlər ABŞ-Rusiya arasında qarşılıqlı əlaqələrin daha da genişlənməsinə səbəb oldu. NATO-Rusiya məsləhətləşmələrinə və əməkdaşlığına yardım etmək məqsədilə Rusiyanın NATO-da missiyası yaradıldı. Məlumat və nəşrləri yaymaq, konfranslar təşkil etməklə qarşılıqlı anlaşmanı artırmaq məqsədilə 2001-ci ilin əvvəllərində Moskvada NATO İnformasiya Ofisi fəaliyyətə başladı (4, s. 102). NATO-nun Hərbi Katibliyi və Rusiyanın Müdafiə Nazirliyi arasındakı müntəzəm əlaqələrə, məlumat mübadiləsi və məsləhətləşmələrə yardım etmək məqsədilə 2002-ci ilin mayında Moskvada Hərbi Əlaqələndirmə Missiyası yaradıldı. 2003-cü ildə NATO-nun Baş Katibinin və Rusiyanın Müdafiə Nazirinin ofisləri arasında birbaşa və təhlükəsiz telefon əl-aqəsi quruldu. 2004-cü ildə missiyanın Mens şəhərində yerləşən NATO-nun Strateji Əməliyyat Komandanlığında, Rusiya Hərbi Əlaqələndirmə Missiyasının ofisi açıldı (4, s. 103).

NATO-Rusiya münasibətləri hər zaman bu cür yüksək tempdə inkişaf etməmişdi. Şərqi Avropada RMS (Raket Müdafiə Sistemi) quraşdırılması, Gürcüstan və Ukraynanın NATO-ya üzvlük məsələsinin irəli sürülməsi, Krımın Rusiya tərəfindən ilhaq edilməsi kimi məsələlər iki tərəf arasındakı münasibətlərin inkişafına mənfi təsir göstərdi. Fikrimizcə, NATO tərəfi Rusiyanın dinc şəkildə etirazlarını diqqətə almır, hətta bunu zəiflik olaraq qeydə alırdı. 2008-ci il avqust müharibəsi ilə ilk dəfə olaraq Rusiya bu məsələdə çox ciddi mövqedə olduğunu göstərdi. Beynəlxalq Sosioloji Tədqiqatlar Mərkəzinin keçirdiyi sorğuya əsasən, Rusiya əhalisinin böyük əksəriyyəti NATO-nun Şərqə doğru genişləməsini bir təhdid olaraq görür. Sorğuda iştirak edənlərin 61 faizi Mərkəzi və Şərqi Avropa ölkələrinin NATO-ya üzvlüyünü birbaşa təhdid olaraq qiymətləndirir. Rusiya hər fürsətdə NATO-nun Şərqi Avropa ölkələri ərazisində nüvə silahı və hərbi güc saxlaması ilə bağlı narahatçılığını dilə gətirirdi. Buna cavab olaraq ABŞ Müdafiə Naziri U.Perri açıqlamasında, “Amerika, hələ ki, keçmiş Varşava Müqaviləsi üzvləri olan NATO üzvlərinin ərazisində nüvə silahlarını yerləşdirməyi nəzərdə tutmur” cavabını vermişdi (4, s. 105).

2014-cü ildə Rusiyanın Krımı ilhaq etməsindən sonra Rusiya ilə NATO arasındakı münasibətlər əhəmiyyətli dərəcədə pisləşmişdir. NATO, Rusiyanın bu hərəkətini qanunsuz və qeyri-legitim hesab edərək həmin ilin aprel ayında Rusiya ilə bütün praktiki əməkdaşlığı dayandırmaq qərarı almışdır. Bununla belə, siyasi və hərbi kanallar vasitəsilə dialoq açıq saxlanılmışdır. NATO, Rusiyanın Ukraynaya qarşı təcavüzkar hərəkətlərini pisləmiş və Şərqi Avropa ölkələrində öz hərbi mövcudluğunu gücləndirərək müttəfiqlərinin təhlükəsizliyini təmin etməyə çalışmışdır. 2018-ci ilin martında Solsberidə edilən kimyəvi hücumdan sonra, Rusiyanın NATO qərargahındakı missiyası 30 nəfərdən 20 nəfərə endirilib. 2021-ci ilin oktyabrında NATO Rusiya Missiyasının səkkiz üzvünün akkreditasiyasını geri götürərək bu rəqəmi daha da azaldıb. Həmçinin 2021-ci ilin oktyabrında Rusiya NATO-dakı diplomatik missiyasının işini dayandırmaq qərarına gəldi və NATO-dan bağlanmasını tələb etdi. NATO-nun Moskvadakı İnformasiya Bürosunu ləğv edib, Moskvadakı Hərbi Əlaqə Missiyasının işini dayandırmışdı. 2021-ci ilin dekabrında Rusiya hakimiyyəti NATO və ABŞ-a qanuni qüvvəyə malik olan müqavilə təklif edərək, NATO-dan müqaviləni yenidən tərtib etməyi tələb etdi. 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin başlaması ilə Rusiya-NATO münasibətləri daha da gərginləşmişdir. NATO, Ukraynaya hərbi və humanitar yardımlarını artırmış, eyni zamanda Rusiya ilə birbaşa qarşıdurmadan qaçınmaq üçün ehtiyatlı davranmışdır.

12 yanvar 2022-ci ildə NRŞ (NATO-Rusiya Şurası) sonuncu dəfə görüşdü. Rusiyanın müttəfiqləri və nümayəndələri Rusiyanın Ukraynada və onun ətrafında hərbi güclənməsini, habelə Rusiyanın təhlükəsizlik razılaşması təklifini müzakirə ediblər. Müttəfiqlərin açıqladığı kimi, NATO Avropa və Alyansın əsas prinsipindən güzəştə get-

məyəcək. NATO-nun Baş Katibi Rusiyanı qarşılıqlı təhlükəsizlik problemlərini müzakirə etmək üçün bir sıra görüşlərə dəvət edib. Əsas müzakirələr silahlara nəzarət, tərksilah, silahların yayılmaması və hərbi təlimlərin şəffaflığının artırılması kimi məsələlərdir (9).

2024-cü ilin oktyabr ayında NATO, Rusiya ilə münasibətlərini yenidən nəzərdən keçirmək üçün müdafiə nazirlərinin görüşünü planlaşdırmışdır. Bu addım Rusiya ilə əlaqələrin onilliklər ərzində davam edən pisləşməsinin nəticəsi olaraq atılmışdır.

**2. Rusiya-Ukrayna münasibətləri**

SSRİ-nin dağılmasından sonra Rusiya və Ukrayna arasındakı münasibətlər mürəkkəb xarakter daşıyırdı. Ukrayna müstəqilliyini elan etsə də, Rusiya uzun müddət onu öz nüfuz dairəsində saxlamağa çalışırdı. Bu dövr ərzində əsas gərginlik nüvə silahları, Qara Dəniz Donanması və enerji asılılığı məsələləri ətrafında cəmləşmişdi.

1994-cü ildə Budapeşt Memorandumu imzalandı. Bu sənədə əsasən, Ukrayna nüvə arsenalından imtina etdi və nüvə silahlarını Rusiyaya təhvil verdi. Əvəzində isə Rusiya, ABŞ və Böyük Britaniya Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə zəmanət verdiklərini bildirdi (8).

İki tərəf arasında nüvə arsenalı məsələsi dinc yolla həll edildikdən sonra Qara Dəniz Donanmasının hansı ölkəyə məxsusluğu məsələsi gündəmə gəldi. SSRİ dövründə Qara Dəniz Donanması, əsasən, Krımda yerləşirdi və Sevastopol onun əsas bazası idi. SSRİ-nin dağılması ilə bu donanmanın taleyi mübahisə mövzusuna çevrildi. 1991-ci ilin dekabrında Ukrayna müstəqilliyini elan etdikdən sonra Qara Dəniz Donanmasının Ukraynaya məxsus olduğunu iddia etdi. Rusiya isə donanmanın SSRİ-nin varisi olaraq ona aid olduğunu bildirdi və Ukraynanın bu donanma üzərində heç bir hüququ olmadığını iddia etdi. 1992-ci ilin fevralında Rusiya prezidenti B. Yeltsin Qara Dəniz Donanmasını Rusiyanın tabeliyinə keçirmək barədə fərman imzaladı. Bu addım Kiyevin sərt etirazına səbəb oldu. Cavab olaraq Ukrayna Ali Radası Krım və Sevastopolu öz ərazisi elan etdi və donanmanın bölüşdürülməsi məsələsini qaldırdı.

1992-ci ilin avqustunda bu donanma MDB Birləşmiş Silahlı Qüvvələrinin tərkibindən çıxarılaraq, Rusiya və Ukraynanın birgə idarəsinə verildi. 1995-ci ilin iyununda Rusiya və Ukraynanın dövlət başçıları Qara Dəniz Donanmasının bölünməsini, Rusiya və Ukrayna Hərbi-Dəniz Qüvvələrinin yerinin müəyyən edilməsini həll etdilər. Qəti olaraq bu məsələ 1997-ci ilin mayında öz həllini tapdı. Rusiya Qara Dəniz Donanmasının 87 faizinə sahib olmaqla, Sevastopol hərbi-dəniz bazasını icarəyə götürmək hüququ aldı. 1997-ci il mayın 31-də Rusiya və Ukrayna "Dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə" imzaladı (5).

SSRİ-nin nüvə mirasının bölüşdürülməsi və Qara Dəniz Donanmasının taleyi məsələsi dinc yolla həllini tapmışdı. Tərəflər arasında digər mübahisə Krım məsələsi oldu. Krım yarımadası 1954-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Rusiya Sovet Federativ Sosialist Respublikasından Ukrayna Sovet Sosialist Respublikasına verildi. Bunun əsas səbəbi o dövrdə Ukrayna və Krım arasında iqtisadi və inzibati əlaqələrin möhkəmləndirilməsi idi. SSRİ dövründə bu qərar böyük müzakirələrə səbəb olmasa da, 1991-ci ildə Ukraynanın müstəqilliyini elan etməsi ilə Krımın statusu yenidən mübahisə mövzusuna çevrildi. Krımda ruslar əhalinin əksəriyyətini təşkil edirdi (təxminən 60%) və onlar Ukraynadan ayrılmaq və ya Rusiyaya birləşmək fikrini müdafiə edirdilər. Krımın Ukraynadan ayrılmaq və ya Rusiyaya birləşmək cəhdləri 1992-ci ildən etibarən açıq şəkildə hiss olunmağa başladı. 1992-ci ilin mayında Krım Ali Şurası Krımı suveren dövlət elan etdi. Lakin Ukrayna parlamenti dərhal buna cavab olaraq Krımın müstəqilliyini tanımadı və Krım Konstitusiyasının Ukrayna Konstitusiyasına uyğunlaşdırılma-

sını tələb etdi. Gərginliyi azaltmaq üçün 1992-ci ilin iyununda kompromis razılaşma əldə olundu. Krım Ukraynanın tərkibində muxtariyyət statusunda qaldı.

Bununla belə, 1994-cü ildə Krımda Rusiyayönlü qüvvələr hakimiyyətə gəldi və separatçılıq meyilləri gücləndi. 1994-cü ilin yanvarında Krımda prezident seçkiləri keçirildi və Rusiyayönümlü Y.Meşkov qalib gəldi. Meşkov Krımın Rusiyaya birləşməsi ideyasını açıq şəkildə dəstəkləyirdi. Onun hakimiyyəti dövründə Krım hökuməti Ukrayna qanunlarını pozaraq Krımın faktiki olaraq müstəqil olmasına çalışdı. Lakin 1995-ci ildə Ukrayna hökuməti Y.Meşkovu hakimiyyətdən uzaqlaşdırdı və Krımın muxtariyyətini məhdudlaşdıran qanunlar qəbul etdi. Ukrayna prezidenti L.Kuçma Krım hökumətini buraxdı və yarımadada birbaşa prezident idarəçiliyi tətbiq etdi. Krımın 1992-ci il konstitusiyası ləğv edildi və yeni konstitusiya hazırlanmağa başlandı. 1996-cı ildə Ukrayna yeni konstitusiya qəbul etdi və Krımı Ukraynanın ayrılmaz hissəsi elan etdi. Krıma Muxtar Respublika statusu verildi, lakin onun müstəqilliyi tamamilə məhdudlaşdırıldı. 1997-ci ildə Rusiya və Ukrayna "Dostluq və Əməkdaşlıq Müqaviləsi" imzaladı. Burada Rusiya Krımın Ukraynanın tərkib hissəsi olduğunu rəsmi olaraq tanıdı.

Bu razılaşmalar Krım məsələsini bir müddətlik gündəmdən çıxardı, lakin gələcəkdə Rusiya-Ukrayna münasibətlərində yenidən münaqişəyə səbəb oldu.

2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaqı Ukrayna və beynəlxalq ictimaiyyət üçün əhəmiyyətli bir hadisə olmuşdur. Bu proses, 2014-cü ilin fevral-mart aylarında baş vermiş və Rusiya Federasiyasının Krım yarımadasını ilhaq etməsi ilə nəticələnmişdir. Hadisələr Ukraynadakı Avromeydan inqilabından sonra başlamış və daha geniş miqyaslı Rusiya-Ukrayna münaqişəsinin bir hissəsi kimi qəbul edilir.

İlhaq prosesi zamanı, 16 mart 2014-cü ildə Krımda referendum keçirilmiş və rəsmi nəticələrə görə, əhalinin böyük əksəriyyəti Rusiyaya qoşulmağa səs vermişdir. Lakin bu referendum və ilhaq beynəlxalq ictimaiyyət tərəfindən geniş şəkildə tanınmayaraq qanunsuz hesab edilmişdir.

2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaqı Qərb dövlətləri tərəfindən geniş şəkildə qınandı və müxtəlif reaksiyalarla qarşılandı. ABŞ və Avropa İttifaqı bu addımı beynəlxalq hüququn pozulması kimi qiymətləndirərək, Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq etdilər. Bu sanksiyalar enerji, maliyyə və müdafiə sektorlarını əhatə edirdi. NATO Rusiyanın hərəkətlərini Avropanın təhlükəsizliyinə təhdid kimi dəyərləndirərək Şərqi Avropada hərbi mövcudluğunu gücləndirdi. Bununla yanaşı, G8 formatı G7-yə çevrildi, çünki Rusiya bu qrupdan xaric edildi. BMT Baş Assambleyası da Krımın ilhaqını qanunsuz hesab edən qətnamə qəbul etdi. Bununla belə, Rusiyanın BMT Təhlükəsizlik Şurasındakı veto hüququ səbəbindən daha sərt tədbirlər görülməsi mümkün olmadı.

2022-ci ilin fevralında Rusiya Ukraynaya qarşı genişmiqyaslı hərbi əməliyyatlara başladı. Bu işğal beynəlxalq ictimaiyyət tərəfindən geniş şəkildə qınandı və Rusiyaya qarşı yenidən ciddi sanksiyaların tətbiqinə gətirib çıxardı. Müharibə nəticəsində hər iki tərəfdə də böyük itkilər olmuş, milyonlarla insan evlərini tərk etmək məcburiyyətində qalmışdır.

Münaqişə həm regional, həm də qlobal səviyyədə siyasi, iqtisadi və humanitar nəticələrə səbəb olmuşdur. Beynəlxalq təşkilatlar və dövlətlər münaqişənin sülh yolu ilə həlli üçün müxtəlif təşəbbüslər irəli sürsələr də, hələlik davamlı sülhə nail olunmamışdır.

Rusiyanın Qərbə qarşı son zamanlar həyata keçirdiyi ekspansionist siyasət və davam edən işğalçılıq fəaliyyətləri Avropa İttifaqını təşkil edən 27 ölkənin milli müdafiəsi üçün riskləri artırıb və onların dövlət büdcələrindən müdafiə xərclərinə ayrılan payların dəyişdirilməsini zəruri edib. Birliyə üzv ölkələr təhlükəsizliklə bağlı narahatlıqları aradan qaldırmaq üçün müdafiə xərclərini artırıblar. Krımın ilhaq tarixi olan 2014-

cü ilin təsirlərini daha qabarıq göstərmək üçün təhlil dövrü 2007-2014 və 2014-2021-ci illərə bölünüb. Avropa İttifaqı ölkələrinin 2007-2021-ci illər üçün hərbi xərclərinin inkişafı SIPRI (Stockholm International Peace Research Institute) məlumat bazasından əldə edilən məlumatlardan istifadə etməklə araşdırılır. Araşdırmanın nəticələrinə görə, Avropa Birliyi ölkələrinin ümumi hərbi xərcləri 2007-ci ildə təqribən 213 milyard dollar olduğu halda, 2014-cü ildə bu məbləğ 208 milyard dollara enib. 2007-2014-cü illərdə cəmi 7 ölkə hərbi xərclərini çox cüzi miqdarda da olsa artırıb. 2014-cü ildə ilhaqdan sonra bütün üzv dövlətlər hərbi xərclərini artırdılar və 2021-ci ilə qədər Avropa Birliyinin ümumi xərcləri təxminən 49 milyard dollar artaraq 257 milyard dolları keçdi. 2014-2021-ci illərdə birliyə üzv olaraq xərclərini ən çox artıran ilk üç ölkə müvafiq olaraq; Litva (191%), Latviya (180%) və Macarıstan (130%) olmuşdu (2).

ABŞ prezidenti D.Tramp seçilmədən öncə dünyada baş verən 2 əsas münaqişəni də bitirəcəyini iddia etmişdir. Bu münaqişələrdən biri də Ukrayna-Rusiya müharibəsidir. D.Trampın ikinci prezidentlik dövründə Ukrayna ilə bağlı siyasəti əvvəlki administrasiyalardan əhəmiyyətli dərəcədə fərqlənmişdir. Tramp Rusiya ilə münasibətləri normallaşdırmaq və Ukraynadakı münaqişəni tez bir zamanda həll etmək üçün bir sıra addımlar atmışdır.

2025-ci ilin fevralında D.Tramp Səudiyyə Ərəbistanında Rusiya rəsmiləri ilə apardığı danışıqlardan sonra Ukraynada seçkilərin keçirilməsini təklif etmişdir. O, prezident V. Zelenskinin rəhbərliyini tənqid edərək onun reytinqinin aşağı olduğunu iddia etmiş və hərbi vəziyyət səbəbindən 2022-ci ildən bəri seçkilərin keçirilmədiyini vurğulayaraq Ukrayna prezidentini "seçkisiz diktator" adlandırmışdır. D.Tramp Ukraynaya göstərilən hərbi və maliyyə yardımını yenidən qiymətləndirmiş və bu yardımı azaltmaq istiqamətində addımlar atmışdır. Bu siyasət dəyişikliyi ABŞ-ın Ukraynaya dəstəyinin zəifləməsi ilə nəticələnmişdir (7). D.Tramp administrasiyası Ukrayna münaqişəsinin həlli üçün Rusiya ilə birbaşa danışıqlara üstünlük vermişdir. 2025-ci ilin əvvəlində D.Trampın Rusiya prezidenti V.Putinlə telefon danışığından sonra ABŞ və Rusiya rəsmiləri arasında Səudiyyə Ərəbistanında yüksək səviyyəli görüşlər keçirilmişdir. Bu danışıqlarda Ukrayna və Avropa müttəfiqləri iştirak etməmişdir ki, bu da Kiyev və Avropada narahatlıqlara səbəb olmuşdur. D.Tramp Ukrayna ilə bağlı sülh razılaşmasının tezliklə əldə olunacağına ümid etdiyini bildirmişdir.

28 fevral 2025-ci ildə ABŞ Prezidenti D.Tramp və Ukrayna prezidenti V.Zelenski arasında Vaşinqtonda, Ağ Evdə görüş keçirilib. Görüşün əsas mövzusu ABŞ və Ukrayna arasında faydalı qazıntılar haqqında sazişin müzakirəsi olub. Lakin görüş gərgin keçib və tərəflər arasında razılıq əldə olunmayıb.

Görüş zamanı D.Tramp və ABŞ-ın Vitse-prezidenti C.D.Vans Zelenskiyə qarşı tənqidi mövqe sərgiləyiblər. Bu, Ukrayna liderinin ABŞ-dan təhlükəsizlik təminatları və Rusiyaya qarşı mövqeyi ilə bağlı fikir ayrılıqlarından irəli gəlib. D. Tramp Zelenskini Rusiyayla sülhə nail olmaq üçün daha çox səy göstərməyə çağırıb və əks halda Üçüncü Dünya Müharibəsi riskinin olduğunu bildirib (10). Görüşün nəticəsiz qalması beynəlxalq aləmdə müxtəlif reaksiyalara səbəb olub. Eyni zamanda Rusiya tərəfi görüşün nəticəsindən məmnun qalmadığını bildirərək Zelenskini tənqid edib.

Londonda keçirilmiş Ukrayna üzrə Avropa Zirvə Toplantısının iştirakçıları Ukraynaya hərbi yardımı davam etdirəcəklərini və Rusiyaya iqtisadi təzyiqləri artıracaqlarını bildirib. Avropa liderləri, xüsusilə Böyük Britaniyanın Baş naziri K. Starmer, Zelenskiyə dəstək ifadə edərək Ukraynaya əlavə hərbi və iqtisadi yardım vəd ediblər (2).

**Nəticə**

Şərqi Avropada Rusiya və ABŞ arasındakı ziddiyyətlər regionun geosiyasi dinamikasını köklü şəkildə dəyişmişdir. 2014-cü ildən sonra hər iki tərəf öz nüfuz dairəsini

qorumaq və genişləndirmək üçün müxtəlif siyasi, iqtisadi və hərbi addımlar atmışdır. Şərqi Avropa və Baltikyanı ölkələr, xüsusilə Krımın ilhaq edilməsindən sonra NATO-nun dəstəyini və iştirakını artırmağa çağırıblar. NATO-nun genişlənməsi və Şərqi Avropada hərbi mövcudluğunun artması Rusiyanı daha aqressiv təhlükəsizlik siyasəti yürütməyə vadar etmişdir. Eyni zamanda Rusiya Qərbin sanksiyaları və Ukraynaya dəstəyinə cavab olaraq regional təsir imkanlarını gücləndirməyə çalışmışdır (1).

1. Regionda təhlükəsizlik balansı dəyişmiş, hərbi gərginlik artmışdır.
2. Şərqi Avropa ölkələri, xüsusilə Polşa və Baltikyanı dövlətlər, daha çox ABŞ və NATO-ya yönəlmişdir.
3. Rusiya ilə Qərb arasında diplomatik əlaqələr zəifləyərək qarşılıqlı etimadsızlıq mühiti yaranmışdır.
4. Enerji siyasəti yeni rəqabət mərhələsinə keçmiş, Avropa İttifaqı Rusiya qazından asılılığı azaltmağa çalışmışdır.
5. Münaqişələrin dərinləşməsi uzunmüddətli regional qeyri-sabitliyə səbəb olmuşdur.

Gələcəkdə regionla bağlı düşüncələrimiz budur ki, Amerikada hakimiyyətə gələn D.Tramp administrasiyası vəd etdiyi kimi Rusiya-Ukrayna müharibəsini bitirəcək. Müharibənin başlanılmasının əsas və ilk səbəbi Rusiyanı zəiflətmək idi. Müharibə səbəbilə Rusiya böyük həcmdə insan gücü və texnika itirmiş, hərbi və iqtisadi cəhətdən olduqca zəifləmişdi. Mənim fikrimcə, Amerika ilk məqsədinə nail oldu. Digər bir məqsəd isə Avropadakı müttəfiqlərinə Rusiyanın böyük bir təhlükə olduğunu xatırlatmaq idi. Ukrayna müharibəsi Avropa ölkələrində təlaşa səbəb oldu. Bu müharibə Avropa təhlükəsizlik mexanizmlərinə zidd bir addım idi. Amerika Soyuq müharibə dövründəki SSRİ-nin acı xatirəsini və Qitənin təhlükəsizlik mexanizmlərində özünün danılmaz rolunu bir daha xatırlatdı.

## ƏDƏBİYYAT


1. Asiman Xəlili-Şərqi Avropada geosiyasi dəyişikliklər. (https://vetennamine.az/serqi-avropada-geosiyasi-deyisiklikler/).
2. Ayna.az-Avropa liderləri qərar veriblər: Ukraynaya hərbi yardım davam edəcək (https://ayna.az/avropa-liderleri-qerar-veribler-ukraynaya-herbi-yardim-davam-edecek).
3. İsaq Ç.İ. Beynəlxalq münasibətlər tarixi. Bakı: Elm və təhsil, 2021, 656 s.
4. Məlikova Z. Şərqi Avropa müasir inkşafın və təhlükəsizliyin mexanizmləri. Bakı: Elm və təhsil, 2017, 224 s.
5. Kayzen-Müasir Rusiyanın xarici siyasəti. (https://kayzen.az/blog/politologiya/27741/m%C3%BCasir-rusiyan%C4%B1n-xarici-siyas%C9%99ti.html?)
6. Rusya'nın 2014 Yılı Kırım'ı İlhakının Avrupa Birliği Ülkelerinin Askeri Harcamalarına Etkisi.(https://dergipark.org.tr/en/pub/itobiad/issue/76122/1237636).
7. Axios.com-Trump calls Zelensky a "dictator" in latest smear. (https://www.axios.com/2025/02/19/trump-zelensky-dictator-ukraine-russia-war).
8. Budjeryn M., Matthew B. Budapest Memorandum at 25: Between Past and Future. March 2020. (https://www.hks.harvard.edu/publications/budapest-memorandum25-between-past-and-future).
9. North Atlantic Treaty Organization \\NATO-Russia relations. (https://www.nato.int/nato_static_fl2014/assets/pdf/2022/2/pdf/220214-factsheet_NATO-Russia_Relations_e.pdf).
10. President Trump and Ukrainian President Zelenskyy in Oval Office. February 2025. (https://www.youtube.com/watch?v=ajxSWocbye8).

***Резюме***

***Рахман Насирли***

***Конфликты между США и Россией в Центральной и Восточной Европе***

Центральная и Восточная Европа является одним из главных центров геополитического конфликта между США и Россией. Борьба за влияние в этом регионе обострилась, особенно после окончания холодной войны. После распада СССР США начали укреплять свои позиции в регионе, в то время как Россия была обеспокоена снижением своего влияния. Принятие Польши, Венгрии и Чехии в НАТО в 1999 году вызвало серьезное недовольство в России, и это расширение было расценено как угроза интересам безопасности Москвы. Расширение НАТО на восток считалось для России «красной чертой», что вызвало жесткую риторику со стороны Москвы. Чтобы уравновесить эти действия США, Россия использовала гибридные инструменты влияния в регионе, включая кампании по дезинформации и кибератаки. Польша и страны Балтии пытались защитить себя от российского влияния путем более тесного сотрудничества с Соединенными Штатами.

Война на Украине усилила напряженность в отношениях между США и Россией, а также усилила военную и политическую напряженность в Центральной и Восточной Европе. В последнее время США усилили поддержку своих союзников, отправив в регион дополнительные войска и системы вооружений, в то время как Россия рассматривает присутствие НАТО в регионе как масштабную угрозу. Это соперничество создает серьезные проблемы стабильности и безопасности. А сности в Центральной и Восточной Европе. Вероятность снижения напряженности в регионе без компромисса между США и Россией представляется незначительной. За время правления Д. Трампа, пришедшего к власти в США в 2024 году, произошли серьезные изменения в политике США в отношении Украины. Эти противоречия способны изменить структуру международных отношений. Страны региона столкнулись с необходимостью выбора между великими державами.

**Ключевые слова**: *война России и Украины, приднестровский конфликт, отношения НАТО и России, аннексия Крыма, санкции*

***Summary***

***Rahman NASIRLI***

***USA-Russian Conflicts in Central and Eastern Europe***

Central and Eastern Europe is one of the main centers of geopolitical confrontation between the United States and Russia. The struggle for influence in this region has become even more acute, especially after the Cold War. After the collapse of the USSR, the United States began to strengthen its position in the region, while Russia was concerned about the decline in its influence. The admission of Poland, Hungary and the Czech Republic to NATO in 1999 caused serious discontent in Russia, and this expansion was assessed as a threat to Moscow's security interests. NATO's expansion to the east was considered a red line for Russia, which led to Moscow's harsh rhetoric. Russia used hybrid means of influence in the region, including disinformation campaigns and cyberattacks, to balance these US steps. Poland and the Baltic states tried to protect themselves from Russian influence by cooperating more closely with the United States.

The war in Ukraine has further deepened US-Russian contradictions and increased military and political tensions in Central and Eastern Europe. In recent times, the US has strengthened its support for its allies by sending additional troops and weapons systems to the region, while Russia views NATO's presence in the region as a large-scale threat. This competition poses serious challenges to stability and security in Central and Eastern Europe. It seems unlikely that tensions in the region will ease without a compromise between the US and Russia. During the presidency of D. Trump, who came to power in the US in 2024, serious changes were made to US policy on Ukraine. These contradictions have the potential to change the structure of international relations. The countries of the region are faced with the obligation to choose between great powers.

**Key words:** *Russia-Ukraine war, Transnistria conflict, NATO-Russia relations, annexation of Crimea, sanctions.*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.